

Deloitte.

# Deloitte vergi və mühasibatlıq bülleteni

Aprel 2023

## Xəbərlər

- 16 dekabr 2022-ci il tarixində Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinə (BEPS) qarşı tədbirlər paketinin tətbiqi üzrə İnklüziv Çərçivə" proqramına qoşulub. Qeyd edək ki, hal-hazırda proqramda 142-dən çox ölkə və yurisdiksiya iştirak edir. Proqramın üzvü kimi Azərbaycan Respublikası iqtisadiyyatın rəqəmsallaşdırılmasından irəli gələn vergi məsələlərini həll etmək üçün minimum BEPS standartlarını tətbiq etmək öhdəliyini öz üzərinə götürür.

- 27 dekabr 2022-ci il tarixində Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilən tədbirdə Azərbaycan ilə Yaponiya arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya imzalanıb. Qeyd edək ki, Konvensiya hal-hazırda qüvvədə deyil.

- 1 yanvar 2023-cü il tarixindən başlayaraq minimum aylıq əməkhaqqının məbləği 345 AZN məbləğində müəyyən olunmuşdur. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53129

- 1 yanvar 2023-cü il tarixindən başlayaraq ölkə üzrə əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 246 AZN, əmək qabiliyyətli əhali üçün 261 AZN, pensiyaçılar üçün 199 AZN, uşaqlar üçün isə 220 AZN məbləğində müəyyən olunub. Əlavə olaraq, ünvanlı dövlət sosial yardımın təyin edilməsi məqsədilə 2023-cü il üçün ehtiyac meyarının həddi 246 AZN məbləğində müəyyən olunub. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53121 https://e-qanun.az/framework/53120

- 1 fevral 2023-cü il tarixindən etibarən minimum əmək pensiyasının məbləği 280 AZN məbləğində müəyyən olunmuşdur. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53458

- 1 yanvar 2023-cü il tarixindən etibarən texnologiyalar parkının rezidenti kimi qeydiyyatda olan və texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslər də texnologiyalar parkının rezidenti kimi nəzərdə tutulan güzəştlərdən istifadə edə bilər.

- 1 fevral 2023-cü il tarixindən etibarən fiziki şəxslərin əmanəti üzrə yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən ödənilən faiz gəlirləri 10% dərəcə ilə ödəmə mənbəyində vergiyə tutulur.

- 1 fevral 2023-cü il tarixindən başlayaraq daşınmaz əmlakın alqı-satqısı üzrə həyata keçirilən ödənişlər, qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının, rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər nağdsız qaydada həyata keçirilir. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53381

- Güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Fərman") 18 mart 2023-cü il tarixində təsdiq edilmişdir. Fərmana əsasən 10 ölkələr və ərazilər güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısına əlavə edilmişdir. Ətraflı məlumat üçün keçid: https://e-qanun.az/framework/53793

- Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Sosial sığorta haqqında Qanununda dəyişiklik edilməsi haqqında Qanunlar Azərbaycan Respublikasının Prezidenti tərəfindən 30 dekabr 2022-ci ildə təsdiq edilmişdir. Dəyişiklər ilə tanışmaq üçün keçid: https://www2.deloitte.com/content/dam/Deloitte/az/Documents/tax/aze/Vergi%20m%C9%99c%C9%99ll%C9%99sin%C9%99%20d%C9%99yi%C5%9Fiklikl%C9%99r%202022.pdf

- 2023-cü ildən etibarən vergi orqanları tərəfindən yeni web platforma istifadəyə verilib. Bu platforma özündə vergi ödəyicisinə aid olan aşağıdakı məlumatları əks etdirir:

  - fəaliyyət növləri üzrə formalaşan vergi öhdəlikləri
  - vergi azadolmaları və güzəştləri
  - vergitutma baxımından tətbiq edilməli və tətbiqi mümkün olmayan tədiyə növləri
  - obyektlərin qeydiyyatı
  - NKA və POS-terminalın quraşdırılması
  - lisenziyalar.

  Ətraflı məlumat üçün keçid: https://lnkd.in/dUuS4YMX

- 2023-cü ildən etibarən "Elektron xəstəlik vərəqəsi" (e-bülleten) sisteminə keçid nəzərdə tutulub. Bu təşəbbüsə əsasən, tibb müəssisəsi tərəfindən yazılan və müvafiq tibb işçisinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilmiş elektron xəstəlik vərəqəsi müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə müavinətlərin təyin edilməsi və ödənilməsi üçün əsas olacaq.
Ətraflı məlumat üçün keçid: https://www.sehiyye.gov.az/media/xeberler-ve-yenilikler/2023-cu-ild-elektron-x-st-lik-v-r-q-si-e-bulleten-sistemin-kecid-n-z-rd-tutulub/

# Xatırlatma təqvimi

## APREL

| B.E | Ç.A | Ç. | C.A | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | **30** |

**30 APREL**
Müəssisənin (təşkilatın) maliyyə vəziyyəti, maliyyə fəaliyyətinin nəticələri və digər iqtisadi göstəriciləri haqqında 1-Müəssisə №-li formanın Dövlət statistika orqanına verilməsi üçün son tarix

**30 APREL**
Qeyri-kommersiya təşkilatları, o cümlədən büdcədənkənar dövlət fondları illik maliyyə hesabatlarını təsisçiyə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə təqdim edilməsi üçün son tarix

## MAY

| B.E | Ç.A | Ç. | C.A | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **15** | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

**15 MAY**
Torpaq vergisi bəyannaməsinin son təqdimolunma tarixi

## İYUN

| B.E | Ç.A | Ç. | C.A | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | **30** | | |

**30 İYUN**
Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları təsisçiyə, habelə qanunla və nizamnamələri ilə müəyyən edilmiş şəxslərə təqdim edilməsi üçün son tarix

**30 İYUN**
Ölkələrarası Hesabat barədə bildirişin vergi orqanlarına təqdim edilməsi üçün son tarix

### Peşəkar mühasib sertifikatı

Xatırlatmaq istərdik ki, müəssisələrin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsi müddətləri və ardıcıllığı aşağıdakı kimi müəyyən edilmişdir:

- 2023-cü il 30 dekabradək:
  - iri və orta sahibkarlıq subyektlərinin baş mühasibləri
  - paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin baş mühasibləri
  - qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların baş mühasibləri
- 2024-cü il 30 dekabradək:
  - illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin 2023-cü il yanvarın 1-dək işə qəbul edilən baş mühasibləri
  - büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dək işə qəbul edilən baş mühasibləri
- illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin və büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dən sonra işə qəbul edilən baş mühasibləri müvafiq peşəkar mühasib sertifikatına malik olmalıdırlar.
  Ətraflı məlumat üçün keçid:
  https://e-qanun.az/framework/40381

Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən həyata keçirilir.

İmtahan Tarixləri:

1-ci mərhələ - 7 may, 17 sentyabr, 12 noyabr
2-ci mərhələ - 18 iyun, 8 oktyabr, 26 noyabr



## Bunu bilirdinizmi?

Xarici valyuta ilə alınmış və dəyəri avans şəklində ödənilmiş aktivlər alıcının balansında ödənişin edildiyi tarixdəki məzənnəyə əsasən uçota alınmalıdır. Ətraflı məlumat üçün IFRIC 22 Xarici Valyuta Əməliyyatları və Avansların Nəzərə Alınması açıqlamasına müraciət edin.

# Tədbirlərimiz və yeniliklərimiz

**Azərbaycan Peşəkar Mühasiblər Klubu**

Deloitte Azərbaycan şirkətinin təşəbbüsü ilə yaradılmış Azərbaycan Peşəkar Mühasiblər Klubunun növbəti görüşü 2 mart 2023-cü il tarixində baş tutdu. Görüş "2022-ci ildə Vergi Məcəlləsində edilmiş dəyişikliklərin mənfəət vergisinin hesablanılmasına təsiri və bəyannamənin 1 saylı Əlavənin tərtibatı zamanı ən çox sual yaradan məqamlar" mövzusuna həsr edilmişdir. Tədbirin xüsusi qonağı İri Vergi Ödəyiciləri üzrə bəyannamə şöbəsinin rəisi Elnur Qasımov idi. Vergi üzrə peşəkarlarımız Gülər Əliyeva və İsli Məhəmmədrəsulova mövzu ətrafında maraqlı təqdimat həyata keçirdi.

Qeyd etmək istərdik ki, Deloitte-un Peşəkar Mühasiblər Klubu ölkəmizin aparıcı şirkətlərinin mühasibat uçotu sahəsi üzrə peşəkarlarını bir araya gətirmək, mühasibatlıq, vergi qanunvericiliyi audit və digər əlaqəli sahələr üzrə fikir mübadiləsi aparmaq, mühasibləri maarifləndirmək məqsədlərini daşıyır.







# Xidmətlərimiz və komandamız

## Sizə necə kömək edə bilərik?



### Vergi məsləhətləri

- Azərbaycan vergi qanunvericili üzrə məsləhət xidmətləri
- Beynəlxalq vergiqoyma və vergi və hüquq prizmasından effektiv biznes strukturlarının hazırlanması
- Vergi öhdəliklərinin yoxlanması və mümkün vergi risklərinin vaxtında aşkarlanması
- Dövlət vergi orqanları tərəfindən keçirilən yoxlama zamanı dəstək
- Transfer qiymətləndirmə ilə bağlı xidmətlər

### Biznes Proseslərinin Həlli

- **Maliyyə evi**
  - Mühasibatlıq
  - Vergi hesabatlılığı
  - Maliyyə nəzarəti
  - Uçotun qurulması və bərpası
- **Texnologiya və Robototexnika Mərkəzi** - Proqram təminatı vasitəsilə müxtəlif növ yüksək həcmli, daimi təkrarlanan əməliyyatların, robotlar tərəfindən qısa bir zamanda və səhvsiz icrası. Maliyyə və mühasibatlıq proqramının seçimi, texniki tapşırıqların yazılması və sınaq dövründə dəstək.
- **Əmək haqqı ilə bağlı xidmətlər** - Əmək haqqının hesablanması, əmək qanunvericiliyi üzrə məsləhət xidmətləri, xarici işçilər üçün yerli vergi qanunvericiliyi üzrə məlumatlandırma sessiyalarının keçirilməsi, əmək haqqı sisteminin qurulması və s.



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
nkerimov@deloitte.az



**Nərmin Aslanova**
**Vergi üzrə Partnyor**
naslanova@deloitte.az



**Rəna Xəlilova**
**Baş Menecer**
rkhalilova@deloitte.az

**deloitte.az**

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL (“Deloitte Qlobal”) və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 345,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə “Deloitte Şəbəkəsi”) hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2023 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.